| Azerbaijani Driving License | Corresponding (Equivalent)Turkey Driving License |
|---|---|
| A1 category Driving License | M, A1 category Driving License |
| A category Driving License | M, A1, A2, A category Driving License |
| B category Driving License | B1, B category Driving License |
| C, BC category Driving License | B1, B, D1, C1, C category Driving License |
| D, CD, BD,BCD category Driving License | B1, B, C1, C, D1, D category Driving License |

| | |
|---|---|
| BE category Driving License | B1, B, BE category Driving License |
| CE category Driving License | C1, C1E, C, CE category Driving License |
| DE category Driving License | D1, D1E, D, DE category Driving License |

| **Turkey Driving License** | **Corresponding (Equivalent)**<br><br>**Azerbaijani Driving License** |
|---|---|
| M category Driving License | A1 category Driving License |
| A1 category Driving License | A1 category Driving License |
| A2 category Driving License | A category Driving License |
| A category Driving License | A category Driving License |
| B1 category Driving License | A category Driving License |
| B category Driving License | B category Driving License |
| C1 category Driving License | C category Driving License |
| C category Driving License | C category Driving License |
| CE category Driving License | CE category Driving License |
| D1 category Driving License | B category Driving License |
| D category Driving License | D category Driving License |
| BE category Driving License | BE category Driving License |
| C1E category Driving License | CE category Driving License |
| D1E category Driving License | DE category Driving License |
| DE category Driving License | DE category Driving License |
| F category Driving License | |

| | |
|---|---|
| G category Driving License | |

**TÜRKİYƏ RESPUBLİKASI HÖKUMƏTİ**

**İLƏ**

**AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ**

**ARASINDA**

**SÜRÜCÜLÜK VƏSİQƏLƏRİNİN QARŞILIQLI TANINMASI VƏ DƏYİŞDİRİLMƏSİ HAQQINDA**

**SAZİŞ**

Türkiyə Respublikası Hökuməti və Azərbaycan Respublikası Hökuməti (bundan sonra "Tərəflər" adlandırılacaq),

hər iki ölkənin ərazisində yol nəqliyyatını sadələşdirmək məqsədilə və

Türkiyə Respublikasında və Azərbaycan Respublikasında verilmiş sürücülük vəsiqələrinin qarşılıqlı tanınmasını və dəyişdirilməsini təmin etmək niyyətilə,

aşağıdakılar barədə razılığa gəldilər:

## Maddə 1

1. Tərəflərin birinin səlahiyyətli orqanları tərəfindən verilmiş sürücülük vəsiqələrinə sahib olan, turizm və ya tranzit keçid məqsədilə digər Tərəfin ərazisində olan ticarət məqsədli nəqliyyat vasitələrinin sürücülərinin sürücülük vəsiqələri qarşılıqlı tanınır.

2.Tərəflər milli qanunvericiliklərinə müvafiq olaraq, digər Tərəfin səlahiyyətli orqanı tərəfindən verilmiş sürücülük vəsiqələrini dəyişdirmək məqsədilə qarşılıqlı şəkildə tanıyırlar. Sürücülük vəsiqələri bu Sazişə Əlavədə göstərilmiş ekvivalentlik cədvəlinə müvafiq olaraq imtahanlar keçirilmədən dəyişdirilir.

3. Tərəflərdən birinin səlahiyyətli orqanı tərəfindən verilmiş etibarlı, müvəqqəti olmayan sürücülük vəsiqələrinin sahibləri, digər Tərəfin dövlətinin ərazisində yaşamaq hüququna malik olduqda, bu Sazişin müddəalarına müvafiq olaraq həmin digər Tərəfin dövlətinin ərazisində nəqliyyat vasitəsini idarə etmək arzusunda olarsa, öz sürücülük vəsiqələrini həmin digər Tərəfin verdiyi sürücülük vəsiqəsinə dəyişmək üçün istənilən vaxt həmin digər Tərəfin səlahiyyətli orqanına müraciət edə bilərlər.

4. Tərəflər müraciət edənlərdən onların nəqliyyat vasitəsini idarə etmək bacarığını müəyyən etmək məqsədilə hər hansı yoxlamadan keçmələrini tələb etmədən, bu maddənin 3-cü bəndinə müvafiq olaraq sürücülük vəsiqələrini dəyişdirirlər.

5. Bu maddənin 4-cü bəndi sürücülük vəsiqəsi almaq istəyən şəxslərə hər bir Tərəfin milli qanunvericiliyi ilə yaş, sağlamlıq və ya əqli vəziyyətlə bağlı olaraq müəyyən olunan məhdudiyyətlərə təsir etmir.

6. Tərəflərin daxili qanunvericiliyinə müvafiq olaraq, hazırlanma tarixində qüvvədə olan mümkün məhdudiyyət və sanksiyalar dəyişdirilməsi tələb olunan sürücülük vəsiqəsinin ilk verilmə tarixindən etibarən tətbiq edilir.

7. Bu Sazişə müvafiq olaraq sürücülük vəsiqələrinin dəyişdirilməsi məqsədilə qarşılıqlı tanınması sürücülük kurslarının iştirakçılarına və ya Tərəflərin milli qanunvericiliklərinə müvafiq olaraq sürücülük öyrənən şəxslərə verilən sürücülük vəsiqələrinə şamil edilmir.

## Maddə 2

1. Tərəfin sürücülük vəsiqələrinin dəyişdirilməsini həyata keçirən səlahiyyətli orqanı müraciət edən şəxsdən digər Tərəfin verdiyi sürücülük vəsiqəsinin əslini və dəyişdirən Tərəfin dövlətinin rəsmi dilinə və ya ingilis dilinə notarial qaydada və ya konsulluq orqanlarında təsdiq edilmiş tərcüməsini təqdim etməsini tələb edə bilər.

2. Tərəfin sürücülük vəsiqələrinin dəyişdirilməsini həyata keçirən səlahiyyətli orqanı müraciət edən şəxslərdən onların müvafiq kateqoriyalı sürücülük vəsiqəsinə aid nəqliyyat vasitələrini idarə etmək üçün fiziki və ya əqli bacarığını təsdiq edən sənəd təqdim etmələrini tələb edir və müraciət edən şəxsin fiziki və ya əqli bacarığı müvafiq sürücülük vəsiqəsi üçün tələb olunan səviyyədə olmadıqda, sürücülük vəsiqəsini dəyişdirməkdən imtina edir.

3. Tərəfin sürücülük vəsiqələrinin dəyişdirilməsini həyata keçirən səlahiyyətli orqanı müraciət edən şəxslərdən milli qanunvericiliyə uyğun olaraq tələb olunan digər sənədləri təqdim etmələrini və rüsumları ödəmələrini tələb edə bilər.

4. Yaşadığı ölkədə sürücülük vəsiqəsinin alınmasından sonra, sürücülük vəsiqəsinin sahibi adıçəkilən ölkənin sürücülük vəsiqələrinin yenilənməsi və ya onlara nəzarətə dair qanunvericiliyinə əməl etmək öhdəliyi daşıyır.

## Maddə 3

Bu Sazişin icrası zamanı Tərəflərin səlahiyyətli orqanları sürücülərin qeydiyyatı ilə bağlı öz milli qanunvericiliklərini tətbiq edirlər.

**Maddə 4**

1. Dəyişdirilmək üçün təqdim edilmiş hər hansı sürücülük vəsiqəsinin etibarlılığı və ya həqiqiliyi ilə bağlı hər hansı şübhə olduğu halda Tərəfin sürücülük vəsiqələrinin dəyişdirilməsini həyata keçirən səlahiyyətli orqanı həmin sürücülük vəsiqəsinin etibarlılığı və ya həqiqiliyini təsdiq etmək üçün digər Tərəfin səlahiyyətli orqanına müraciət edə bilər.

2. Bu Sazişin icrası müddətində hər hansı qanun pozuntusunun və ya cəzalandırılması tələb olunan hər hansı hərəkətin baş verməsi halında, yarana biləcək məsuliyyət ərazisində hərəkətin baş verdiyi digər Tərəfin səlahiyyətli orqanları tərəfindən həmin Tərəfin qüvvədə olan qanunvericiliyinə müvafiq olaraq müəyyən edilir.

**Maddə 5**

1. Dəyişdirilmək məqsədilə Tərəfin səlahiyyətli orqanı tərəfindən götürülmüş sürücülük vəsiqələrinin əsilləri digər Tərəfin Səfirliyinə təhvil verilməlidir.

2. Sürücülük vəsiqəsinin əslini qəbul etdikdən sonra qəbul edən Tərəfin səlahiyyətli orqanı sürücülük vəsiqəsindəki hər hansı qeyri-dəqiqlik və ya səhvlər və ya onun etibarlılığı və ya həqiqiliyi barədə şübhə haqqında göndərən Tərəfin səlahiyyətli orqanına məlumat verməlidir.

3. Sürücülük vəsiqələrinin dəyişdirilməsi prosedurları zamanı Tərəflərin səlahiyyətli orqanları tərəfindən alınacaq əvvəlki sürücülük vəsiqələri sürücülük vəsiqələrinin sahiblərinə qaytarılacaqdır.

**Maddə 6**

1. Tərəflər bu Sazişin qüvvəyə minməsindən əvvəl, diplomatik kanallar vasitəsilə bir-birlərini səlahiyyətli orqanlarının tam adları, ünvanları, telefon və faks nömrələri, elektron poçt ünvanları və bu Sazişə Əlavədə nəzərdə tutulan etibarlı sürücülük vəsiqələrinin nümunələri ilə təmin etməlidirlər.

2. Tərəflərin səlahiyyətli orqanları bir-birlərini özlərinin əlaqə məlumatlarındakı və sürücülük vəsiqələrinin nümunələrindəki edilmiş hər hansı dəyişikliklər haqqında dərhal məlumatlandırmalıdırlar.

**Maddə 7**

T.C. CUMHURBAŞKANLIĞI HUKUK VE MEVZUAT GENEL MÜDÜRLÜĞÜ 1923
T.C.

Tərəflərin səlahiyyətli orqanları arasında əlaqə yazılı formada ingilis dilində həyata keçirilir.

**Maddə 8**

Bu Sazişə Tərəflərin qarşılıqlı yazılı razılığı əsasında istənilən vaxt dəyişiklik edilə bilər. Dəyişikliklər bu Sazişin 11-ci maddəsinin 1-ci bəndində nəzərdə tutulmuş eyni prosedura əsasən qüvvəyə minir.

**Maddə 9**

1. Bu Saziş Tərəflərin tərəfdar çıxdıqları digər beynəlxalq sazişlərdən irəli gələn hüquq və öhdəliklərinə təsir etmir.
2. Bu Saziş hər bir Tərəfin qüvvədə olan milli qanunvericiliyinə müvafiq olaraq həyata keçirilir.
3. Bu Saziş üçüncü Tərəf dövlətdən alınmaqla, iki ölkədən biri tərəfindən dəyişdirilən sürücülük vəsiqələrinə münasibətdə tətbiq edilmir.

**Maddə 10**

Sazişin təfsiri və ya tətbiqi ilə əlaqədar yarana biləcək hər hansı fikir ayrılığı Tərəflər arasında danışıqlar və məsləhətləşmələr yolu ilə həll edilir.

**Maddə 11**

1. Bu Saziş onun ayrılmaz tərkib hissəsini təşkil edən Əlavə ilə birlikdə, Tərəflərin bu Sazişin qüvvəyə minməsi üçün tələb olunan müvafiq dövlətdaxili prosedurlarının tamamlanmasını təsdiq edən sonuncu yazılı bildirişi diplomatik kanallar vasitəsilə aldıqları tarixdən sonra otuzuncu (30-cu) gündə qüvvəyə minir. Saziş qeyri-müəyyən müddətə qüvvədə qalır.

2. Tərəflərdən hər biri digər Tərəfə diplomatik kanallar vasitəsilə yazılı bildiriş göndərməklə, bu Sazişi ləğv edə bilər. Bu halda ləğvetmə digər Tərəfin bildirişi aldığı tarixdən sonra otuzuncu (30-cu) gün qüvvəyə minir.

T.C.
T.C.

**BUNUN TƏSDİQİ OLARAQ,** müvafiq Hökumətləri tərəfindən lazımi qaydada səlahiyyətləndirilmiş aşağıda imza edən şəxslər bu Sazişi imzaladılar.

Ankara şəhərində, 15 mart 2016-cı il tarixində, Türk, Azərbaycan və ingilis dillərində olmaqla iki nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Təfsir zamanı fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilindəki mətndən istifadə ediləcəkdir.

**TÜRKİYƏ RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN**

**Efkan ALA**
**Türkiyə Respublikasının Daxili İşlər Naziri**

**AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN**

**Abid ŞƏRİFOV**
**Azərbaycan Respublikası Baş Nazirinin Muavini**

*Əlavə*

*EKVİVALENTLİK CƏDVƏLİ*

**01.01.2016-CI İL TARİXDƏN ƏVVƏL TÜRKİYƏ RESPUBLİKASININ SÜRÜCÜLÜK VƏSİQƏLƏRİ KATEQORİYALARI VƏ İSTİFADƏ ETMƏK HÜQUQUNA MALİK OLDUQLARI NƏQLİYYAT VASİTƏLƏRİ**

| |
|---|
| **A1** (motorlu velosiped) |
| **A2** (motorlu velosiped, motosiklet) |
| **B** (rezin təkərli traktor, avtomobil, mikroavtobus, kiçik həcmli yük maşını) |
| **C** (rezin təkərli traktor, avtomobil, mikroavtobus, kiçik və iri həcmli yük maşınları) |
| **D** (rezin təkərli traktor, avtomobil, mikroavtobus, kiçik və iri həcmli yük maşınları, çəkici) |
| **E 27.04.1997-ci il tarixindən əvvəl verilənlər** (rezin təkərli traktor, avtomobil, mikroavtobus, kiçik və iri həcmli yük maşınları, çəkici və avtobus) |
| **E 27.04.1997-ci il tarixindən sonra verilənlər** (rezin təkərli traktor, avtomobil, mikroavtobus, kiçik və iri həcmli yük maşınları, çəkici və avtobus) |

**01.01.2016-CI İL TARİXDƏN ƏVVƏL TƏRTİB OLUNAN SÜRÜCÜLÜK VƏSİQƏLƏRİNİN QARŞILIQLIĞINI GÖSTƏRƏN CƏDVƏL**

| **Azərbaycanın sürücülük vəsiqələri** | **Türkiyənin müvafiq sürücülük vəsiqələri** |
|---|---|
| A1 kateqoriyalı sürücülük vəsiqəsi | A1 kateqoriyalı sürücülük vəsiqəsi |
| A kateqoriyalı sürücülük vəsiqəsi | A2 kateqoriyalı sürücülük vəsiqəsi |
| B kateqoriyalı sürücülük vəsiqəsi | B kateqoriyalı sürücülük vəsiqəsi |
| C, BC kateqoriyalı sürücülük vəsiqəsi | C kateqoriyalı sürücülük vəsiqəsi |
| D, CD, BD,BCD kateqoriyalı sürücülük vəsiqəsi | E kateqoriyalı sürücülük vəsiqəsi |
| BE kateqoriyalı sürücülük vəsiqəsi | B kateqoriyalı sürücülük vəsiqəsi |
| CE kateqoriyalı sürücülük vəsiqəsi | D kateqoriyalı sürücülük vəsiqəsi |
| DE kateqoriyalı sürücülük vəsiqəsi | D, E kateqoriyalı sürücülük vəsiqəsi |

| **Türkiyənin sürücülük vəsiqələri** | **Azərbaycanın müvafiq sürücülük vəsiqələri** |
|---|---|
| A1 kateqoriyalı sürücülük vəsiqəsi | A1 kateqoriyalı sürücülük vəsiqəsi |
| A2 kateqoriyalı sürücülük vəsiqəsi | A kateqoriyalı sürücülük vəsiqəsi |
| B kateqoriyalı sürücülük vəsiqəsi | B kateqoriyalı sürücülük vəsiqəsi |
| C kateqoriyalı sürücülük vəsiqəsi | C,B kateqoriyalı sürücülük vəsiqəsi |

T.C. Cumhurbaşkanlığı İdari İşler Başkanlığı Mevzuat Genel Müdürlüğü 1923

| | |
|---|---|
| D kateqoriyalı sürücülük vəsiqəsi | CE,C,B kateqoriyalı sürücülük vəsiqəsi |
| E kateqoriyalı sürücülük vəsiqəsi 27.04.1997-ci il tarixdən əvvəl verilənlər | B,C,D,BE,CE,DE kateqoriyalı sürücülük vəsiqəsi |
| E kateqoriyalı sürücülük vəsiqəsi 27.04.1997-ci il tarixdən sonra verilənlər | B,C,D kateqoriyalı sürücülük vəsiqəsi |

## 01.01.2016-CI İL TARİXDƏN SONRA TÜRKİYƏ RESPUBLİKASININ SÜRÜCÜLÜK VƏSİQƏLƏRİ KATEQORİYALARI VƏ İSTİFADƏ ETMƏK HÜQUQUNA MALİK OLDUQLARI NƏQLİYYAT VASİTƏLƏRİ

| |
|---|
| **M** kateqoriyalı sürücülük vəsiqəsi - iki, üç və dörd təkərli motorlu velosiped (moped) istifadəçılərinə verilir. |
| **A1** kateqoriyalı sürücülük vəsiqəsi - silindr həcnli 125 sm ³ , gücü 11 kilovat, gücünün çəkisinə nisbəti 0,1-dən çox olmayan, səbətli və ya səbətsiz iki təkərli motosikletlər və gücü 15 kilovatdan çox olmayan üç təkərli motosiklet istifadəçilərinə verilir. |
| **A2** kateqoriyalı sürücülük vəsiqəsi - kateqoriyası sürücülük vəsiqəsi-gücü 35 kilovatdan və gücünün çəkisinə nisbəti 0.2-dən çox olmayan, səbətli və ya səbətsiz iki təkərli motosiklet və gücü 15 kilovatdan çox olmayan üç təkərli motosiklet istifadəçilərinə verilir. |
| **A** kateqoriyalı sürücülük vəsiqəsi - səbətli və ya səbətsiz iki təkərli motosikletlər və gücü 15 kilovatdan çox olan üç təkərli motosiklet istifadəçilərinə verilir. |
| **B1** kateqoriyalı sürücülük vəsiqəsi - xalis motor gücü 15 kv, xalis çəkisi 400 kq, yük daşımalarında istifadə edilənlər üçün isə xalis çəkisi 550 kq-dan çox olmayan 4 təkərli motosiklet istifadəçilərinə verilir. Elektrik ilə işləyən nəqliyyat vasitələrinin xalis çəkilərinin hesablanmasında batareyanın çəkisi nəzərə alınmır. |
| **B** kateqoriyalı sürücülük vəsiqəsi - avtomobil və kiçik həcmli yük maşını istifadəçilərinə verilir. Sürücülük vəsiqəsinin sahibi, müvafiq növ təsdiqi haqqındakı əsasnamələrə zidd olmamaq və 29.05.2013-cü il tarixli 28661 saylı "Rəsmi Qəzet"də dərc olunan Milli Təhsil Nazirliyinin "Xüsusi Motorlu Nəqliyyat Vasitələri üzrə Sürücülük Kursu" Nizamnaməsində qeyd olunan təlimi başa vurmaq və ya qabiliyyət və davranış imtahanını vermək şərti ilə yüklü vəziyyətdə maksimum çəkisi 4250 kq-a qədər olan birləşmiş nəqliyyat vasitələrinidə idarə edə bilər. |
| **BE** kateqoriyalı sürücülük vəsiqəsi - B kateqoriyalı sürücülük vəsiqəsi ilə istifadə olunan nəqliyyat vastələrinə qoşulan və yüklü vəziyyətdə maksimum çəkisi 3500 kq-dan çox olmayan qoşqulu və ya yarımqoşqulu birləşmiş nəqliyyat vasitəsi idarə edənlərə verilir. |
| **C1** kateqoriyalı sürücülük vəsiqəsi - yüklü vəziyyətdə maksimum çəkisi 3500 kq-dan çox və 7500 kq-dan az olan iri həcmli yük maşını və çəkici idarə edənlərə verilir. |
| **C1E** kateqoriyalı sürücülük vəsiqəsi - C1 kateqoriyalı sürücülük vəsiqəsi ilə idarəolunan nəqliyyat vasitələrinə qoşulan və yüklü vəziyyətdə maksimum çəkisi 750 kq-dan çox olan, qoşqu və ya yarımqoşqudan ibarət və ümumi çəkisi (qatar çəkisi) 12000 kq-dan çox olmayan birləşmiş nəqliyyat vasitələri və B kateqoriyalı sürücülük vəsiqəsi ilə idarə olunan nəqliyyat vasitələrinə qoşulan və yüklü vəziyyətdə maksimum çəkisi 3500 kq-dan çox olan qoşqu və yarıqoşqudan ibarət və ümumi çəkisi (qatar çəkisi) 12000 kq-dan çox olmayan birləşmiş nəqliyyat vasitəsi idarə edənlərə verilir. |
| **C** kateqoriyalı sürücülük vəsiqəsi - iri həcmli yük maşını və çəkici istifadəçilərinə verilir. |

| |
|---|
| **CE** kateqoriyalı sürücülük vəsiqəsi - C kateqoriyalı sürücülük vəsiqəsi ilə idarə olunan nəqliyyat vasitələrinə qoşulan və yüklü vəziyyətdə maksimum çəkisi 750 kq-dan çox olan qoşqu və ya yarımqoşqudan ibarət birləşmiş nəqliyyat vasitəsi idarə edənlərə verilir. |
| **D1**kateqoriyalı sürücülük vəsiqəsi - mikroavtobus istifadəçilərinə verilir. |
| **D1E** kateqoriyalı sürücülük vəsiqəsi - D1 kateqoriyalı sürücülük vəsiqəsi ilə idarə olunan nəqliyyat vasitələrinə qoşulan və yüklü vəziyyətdə maksimum çəkisi 750 kq-dan çox olan qoşqudan ibarət birləşmiş nəqliyyat vasitəsi idarə edənlərə verilir. |
| **D** kateqoriyalı sürücülük vəsiqəsi - mikroavtobus və avtobusları idarə edənlərə verilir. |
| **DE** kateqoriyalı sürücülük vəsiqəsi - D kateqoriyalı sürücülük vəsiqəsi ilə idarə olunan nəqliyyat vasitələrinə qoşulan və yüklü vəziyyətdə maksimum çəkisi 750 kq-dan çox olan qoşqudan ibarət birləşmiş nəqliyyat vasitəsi idarə edənlərə verilir. |
| **F** kateqoriyalı sürücülük vəsiqəsi - rezin təkərli traktor sürücülərinə verilir. |
| **G** kateqoriyalı sürücülük vəsiqəsi - iş maşınları kateqoriyasına daxil oan motorlu nəqliyyat vasitəsi idarə edənlərə verilir. |

| **TÜRKİYƏ RESPUBLİKASI SÜRÜCÜLÜK VƏSİQƏLƏRİNİN KATEQORİYALARI** | |
|---|---|
| **01.01.2016-CI İL TARİXİNDƏN ƏVVƏL TƏRTİB OLUNAN SÜRÜCÜLÜK VƏSİQƏSİ KATEQORİYALARI** | **01.01.2016-CI İL TARİXİNDƏN SONRA TƏRTİB OLUNAN SÜRÜCÜLÜK VƏSİQƏSİ KATEQORİYALARI** |
| A1 | M və A1 |
| A2 | M, A1, A2, A və B1 |
| B | M, B1, B, D1 və F |
| C | M, B1, B, D1, C1, C və F |
| D | M, B1, B, BE, C1, C1E, C, CE, D1E və F |
| E (28.04.1997-Cİ İLDƏN ƏVVƏL) | M,B1,B, BE, C1,C1E,C,CE,D1,D1E,D,DE və F |
| E (28.04.1997-Cİ İLDƏN SONRA) | M,B1,B,C1,C,D1,D və F |
| F | M və F |
| G | M və G |
| H | Əlillik dərəcəsinə görə A və ya B |

## 01.01.2016-CI İL TARİXDƏN SONRA TƏRTİB OLUNAN SÜRÜCÜLÜK VƏSİQƏLƏRİNİN QARŞILIQLIĞINI GÖSTƏRƏN CƏDVƏL

| **Azərbaycanın sürücülük vəsiqələri** | **Türkiyənin müvafiq sürücülük vəsiqələri** |
|---|---|
| A1 kateqoriyalı sürücülük vəsiqəsi | M, A1 kateqoriyalı sürücülük vəsiqəsi |
| A kateqoriyalı sürücülük vəsiqəsi | M, A1, A2, A kateqoriyalı sürücülük vəsiqəsi |

*T.C.* BAŞBAKANLIK MEVZUAT GENEL MÜDÜRLÜĞÜ
*T.C.*

| | |
|---|---|
| B kateqoriyalı sürücülük vəsiqəsi | M, B1, B, F kateqoriyalı sürücülük vəsiqəsi |
| C, BC kateqoriyalı sürücülük vəsiqəsi | M, B1, B, D1, C1, C, F kateqoriyalı sürücülük vəsiqəsi |
| D, CD, BD,BCD kateqoriyalı sürücülük vəsiqəsi | M, B1, B, C1, C, D1, D, F kateqoriyalı sürücülük vəsiqəsi |
| BE kateqoriyalı sürücülük vəsiqəsi | M, B1, B, BE, F kateqoriyalı sürücülük vəsiqəsi |
| CE kateqoriyalı sürücülük vəsiqəsi | M, B1, B, BE, C1, C1E, C, CE, D1E, F kateqoriyalı sürücülük vəsiqəsi |
| DE kateqoriyalı sürücülük vəsiqəsi | M, B1, B, BE, C1, C1E, C, CE, D1, D1E, D, DE, F kateqoriyalı sürücülük vəsiqəsi |

| **Türkiyənin sürücülük vəsiqələri** | **Azərbaycanın müvafiq sürücülük vəsiqələri** |
|---|---|
| M kateqoriyalı sürücülük vəsiqəsi | |
| A1 kateqoriyalı sürücülük vəsiqəsi | A1 kateqoriyalı sürücülük vəsiqəsi |
| A2 kateqoriyalı sürücülük vəsiqəsi | A kateqoriyalı sürücülük vəsiqəsi |
| A kateqoriyalı sürücülük vəsiqəsi | A kateqoriyalı sürücülük vəsiqəsi |
| B1 kateqoriyalı sürücülük vəsiqəsi | A kateqoriyalı sürücülük vəsiqəsi |
| B kateqoriyalı sürücülük vəsiqəsi | B kateqoriyalı sürücülük vəsiqəsi |
| C1 kateqoriyalı sürücülük vəsiqəsi | C kateqoriyalı sürücülük vəsiqəsi |
| C kateqoriyalı sürücülük vəsiqəsi | C kateqoriyalı sürücülük vəsiqəsi |
| D1 kateqoriyalı sürücülük vəsiqəsi | B kateqoriyalı sürücülük vəsiqəsi |
| D kateqoriyalı sürücülük vəsiqəsi | B,C,D kateqoriyalı sürücülük vəsiqəsi |
| BE kateqoriyalı sürücülük vəsiqəsi | BE kateqoriyalı sürücülük vəsiqəsi |
| C1E kateqoriyalı sürücülük vəsiqəsi | CE kateqoriyalı sürücülük vəsiqəsi |
| D1E kateqoriyalı sürücülük vəsiqəsi | DE kateqoriyalı sürücülük vəsiqəsi |
| DE kateqoriyalı sürücülük vəsiqəsi | B, C, D, BE, CE, DE kateqoriyalı sürücülük vəsiqəsi |
| F kateqoriyalı sürücülük vəsiqəsi | |

T.C. Cumhurbaşkanlığı İdari İşler Başkanlığı Mevzuat Genel Müdürlüğü
T.C. Dışişleri Bakanlığı

| | |
|---|---|
| G kateqoriyalı sürücülük vəsiqəsi | |

2017/59032949-Bakü BE/12202423

Türkiye Cumhuriyeti Büyükelçiliği Azerbaycan Cumhuriyeti Dışişleri Bakanlığı'na saygılarını sunar ve Bakanlığın 17 Haziran 2014 tarih ve 5/11-1198/02/14 sayılı Notasına atıfla aşağıdaki hususları bildirmekten şeref duyar.

Ankara'da 15 Mart 2016 tarihinde imzalanmış olan "Sürücü Belgelerinin Karşılıklı Tanınması ve Tebdiline İlişkin Anlaşma"nın Türkiye'deki iç onay süreci bağlamında yapılan incelemelerde; Türkçe, İngilizce ve Azerbaycan dilinde akdedilen Anlaşma'nın eklerinde bazı maddi hataların tespit edildiği, bu hataların Nota teatisi ile düzeltilmesinin mümkün olduğu bildirilmektedir. Düzeltilmesinde yarar görülen hususlar aşağıda yer almakta olup, yapılan değişikliklerin esasa müteallik olmadığı belirtilmektedir.

- Türk tarafında kalan Türkçe nüshanın başlangıç kısmında yer alan ilk iki paragrafın yerleri değiştirilerek Türk tarafında kalan İngilizce nüsha ile uyumlu hale getirilmesi.
- Türkçe nüshanın 11. maddesinde yer alan "Süresiz süre ile yürürlükte kalacaktır." ifadesinin "Süresiz yürürlükte kalacaktır." olarak değiştirilmesi.
-Türk tarafında kalan Türkçe nüshanın 3. maddesinde yer alan "ekleyebilirler" ifadesinin "eklerler" şeklinde değiştirilmesi.
-Türk tarafında kalan Türkçe nüshanın Ek kısmının başlığına "EK" ve "EŞDEĞERLİK TABLOSU" ifadelerinin eklenerek Türk tarafında kalan İngilizce nüsha ile uyumlu hale getirilmesi.
- Türk tarafında kalan Türkçe nüshanın Ek kısmında yer alan "01/01/2016 TARİHİNDEN ÖNCE DÜZENLENEN SÜRÜCÜ BELGELERİNİN KARŞILIKLARINI GÖSTERİR TABLO" ve "01/01/2016 TARİHİNDEN SONRA DÜZENLENEN SÜRÜCÜ BELGELERİNİN KARŞILIKLARINI GÖSTERİR TABLO" başlıklarının altındaki "Türkiye Sürücü Belgesine Eşdeğer" ifadesinin "Türk Sürücü Belgesine Eşdeğer" olarak, "Türkiye Sürücü Belgesi" ifadesinin "Türk Sürücü Belgesi" olarak değiştirilmesi."
-Türk tarafında kalan Türkçe nüshanın Ek kısmında yer alan "01/01/2016 TARİHİNDEN ÖNCE DÜZENLENEN SÜRÜCÜ BELGELERİNİN KARŞILIKLARINI GÖSTERİR TABLO" ve "01/01/2016 TARİHİNDEN SONRA DÜZENLENEN SÜRÜCÜ BELGELERİNİN KARŞILIKLARINI GÖSTERİR TABLO" başlıklarının altındaki tablolarda sürücü belgesi sınıflarından sonra "Sınıfı Sürücü Belgesi" ifadesinin eklenmesi. (Örneğin, "C, BC Sınıfı Sürücü Belgesi", "A Sınıfı Sürücü Belgesi" gibi.)
- Türk tarafında kalan İngilizce nüshanın Ek kısmında yer alan "CHART EQUIVALENCES OF DRIVING LICENSES ISSUED BEFORE 01/01/2016" ve "CHART EQUIVALENCES FOR THE CATEGORIES OF DRIVING LICENSES ISSUED AFTER 01/01/2016" başlıklarının altındaki tabloların yerlerinin değiştirilerek Türk tarafında kalan Türkçe nüsha ile uyumlu hale getirilmesi.

T.C. CUMHURBAŞKANLIĞI ... KANUNLAR VE KARARLAR ... MEVZUAT GENEL MÜDÜRLÜĞÜ 1923

T.C. DIŞİŞLERİ BAKANLIĞI ... GENEL MÜDÜRLÜĞÜ 1920

- Türk tarafında kalan İngilizce nüshanın Ek kısmında yer alan "CHART EQUIVALENCES OF DRIVING LICENSES ISSUED BEFORE 01/01/2016" başlığının "CHART EQUIVALENCES FOR THE CATEGORIES OF DRIVING LICENSES ISSUED BEFORE 01/01/2016" olarak değiştirilmesi.
- Türk tarafında kalan İngilizce nüshanın Ek kısmında yer alan "CHART EQUIVALENCES OF DRIVING LICENSES ISSUED BEFORE 01/01/2016" ve "CHART EQUIVALENCES FOR THE CATEGORIES OF DRIVING LICENSES ISSUED AFTER 01/01/2016" başlıklarının altındaki "Turkey Driving License" ifadesinin "Turkish Driving License" olarak, "Corresponding (Equivalent) Turkey Driving License" ifadesinin "Corresponding (Equivalent) Turkish Driving License" olarak değiştirilmesi.

Büyükelçilik, yukarıda maruz ve ilişikte sunulan metin üzerine işlenmiş hususların incelenerek, uygun bulunması halinde Azerbaycan'ın yazılı muvafakatının Büyükelçiliğe iletilmesi hususunda saygıdeğer Bakanlığın nazik yardımlarını rica eder.

Türkiye Cumhuriyeti Büyükelçiliği bu vesileyle Azerbaycan Cumhuriyeti Dışişleri Bakanlığı'na en derin saygılarının teminatını yineler.

Bakü, 2 Mayıs 2017

Ek: Tk.

**Azerbaycan Cumhuriyeti**
**Dışişleri Bakanlığı**
**Bakü**

**AZƏRBAYCAN RESPUBLİKASI**
**XARİCİ İŞLƏR NAZİRLİYİ**

**REPUBLIC OF AZERBAIJAN**
**MINISTRY OF FOREIGN AFFAIRS**

№ 5/11-1353/03/17

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Türkiyə Respublikasının Azərbaycan Respublikasındakı Səfirliyinə öz ehtiramını ifadə edir "Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında sürücülük vəsiqələrinin qarşılıqlı tanınması və mübadiləsi haqqında Saziş"in əlavələrinə düzəlişlər ilə bağlı Səfirliyin 2 may 2017-ci il tarixli 2017/59032949-Bakü BE/12202423 nömrəli notasının alındığını və həmin düzəlişlərin Azərbaycan tərəfindən qəbul edildiyini bildirməkdən şərəf duyur.

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi fürsətdən istifadə edərək Türkiyə Respublikasının Azərbaycan Respublikasındakı Səfirliyinə öz ehtiramını bir daha izhar edir.

Bakı, "16" iyun 2017-ci il

AZƏRBAYCAN RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRLİYİ / REPUBLIC OF AZERBAIJAN MINISTRY OF FOREIGN AFFAIRS — KATİBLİK / SECRETARIAT

**Türkiyə Respublikasının**
**Azərbaycan Respublikasındakı Səfirliyi**
**Bakı şəhəri**

T.C. ... HUKUK MÜŞAVİRLİĞİ ... MEVZUAT GENEL MÜDÜRLÜĞÜ

16/6/17

T.C. DIŞİŞLERİ BAKANLIĞI KONSOLOSLUK GENEL MÜDÜRLÜĞÜ 1923

...-06-2017
2523110

(gayr-ı resmi çeviri)

**AZERBAYCAN CUMHURİYETİ**
**DIŞİŞLERİ BAKANLIĞI**

No. 5/11-1353/03/17

Azerbaycan Cumhuriyeti Dışişleri Bakanlığı Türkiye Cumhuriyeti Bakü Büyükelçiliği'ne saygılarını sunar ve "Azerbaycan Cumhuriyeti Hükümeti ile Türkiye Cumhuriyeti Hükümeti Arasında Sürücü Belgelerinin Karşılıklı Olarak Tanınması ve Değişimi Hakkında Anlaşma" eklerine yapılan düzeltmelerle ilgili Büyükelçiliğin 2 Mayıs 2017 tarih ve 2017/590329949-Bakü BE/12202423 sayılı Notasının alındığını ve söz konusu düzeltmelerin Azerbaycan tarafından kabul edildiğini bildirmekten şeref duyar.

Azerbaycan Cumhuriyeti Dışişleri Bakanlığı Türkiye Cumhuriyeti Bakü Büyükelçiliğine en derin saygılarının teminatını yineler.

**Bakü, 16 Haziran 2017**

**Türkiye Cumhuriyeti**
**Bakü Büyükelçiliği**
**Bakü**